# İnklüziv sinif təşkil edilən ümumi təhsil müəssisələrinin şəbəkəsinin genişləndirilməsi barədə

## Azərbaycan Respublikası təhsil nazirinin əmri

"2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı"nın icrasını təmin etmək məqsədilə "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 13.5-ci bəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** 2021/2022-ci tədris ilində Bakı şəhəri 246 nömrəli və Quba şəhəri 2 nömrəli məktəb-liseylərdə, Gəncə şəhəri 39, Sumqayıt şəhəri 4 və 21, Şirvan şəhəri 10, Qazax şəhəri 2 və Şəki şəhəri 12 nömrəli tam orta məktəblərdə inklüziv siniflər təşkil edilsin.

**2.** Yerli təhsili idarəetmə orqanları sağlamlıq imkanları məhdud uşaqların psixoloji-tibbi-pedaqoji komissiyanın qərarı əsasında seçilmiş ümumi təhsil müəssisələrində inklüziv təhsilə cəlb olunmasını və həmin məktəblərdə loqopedik xidmətin yaradılmasını təmin etsinlər.

**3.** İnsan resursları şöbəsi (E.Bağırov) həmin ümumi təhsil müəssisələrinə xüsusi təhsil üzrə mütəxəssislərin işə götürülməsinə nəzarət etsin.

**4.** Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi (A.Axundov) müəyyən olunmuş məktəblərin infrastrukturunun sağlamlıq imkanları məhdud uşaqlar üçün müyəssərliyi ilə bağlı tədbirlər görsün.

**5.** Müəyyən olunmuş məktəblərlə işin təşkili və koordinasiyası Azərbaycan Respublikası Təhsil İnstitutuna (R.Əzizov) tapşırılsın.

**6.** İctimaiyyətlə əlaqələr sektoru (C.Valehov) bu əmrin "Azərbaycan müəllimi" qəzetində dərc olunmasını və Nazirliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**7.** Əmrin icrasına nəzarət nazir müavini Firudin Qurbanova həvalə edilsin.

**Emin ƏMRULLAYEV,**
**Azərbaycan Respublikasının təhsil naziri**

*2 iyul 2021-ci il*

Azərb. müəllimi.- 2021.- 9 iyul.-S.2.